forma və metodlarının işlənib hazırlanması və onun reallaşdırılması istiqamətlərinin şərhi.

Tətbiqi əhəmiyyət: Məqalədə irəli sürülmüş müddəalar, işlənmiş texnologiyalar müəllimlərin bu sahədə nəzəri biliklərinin formalaşmasına və məktəblərdə aparılan peşəyönümü işlərinin səmərəsinin yüksəlməsinə praktik kömək göstərər.

Məqalənin iqtisadi səmərəsi: Şagirdlərin peşəseçməyə hazırlanması probleminin "Ümumtəhsil məktəbi – ilk peşə - ixtisas təhsili – ali məktəb" sistemində həll edilməsi məktəbdə bu sahədə aparılan təlim-tərbiyə işlərinin optimal şəkildə həyata keçirilməsinə, peşə seçiminin düzgün olmasına və gələcək məzunların iqtisadiyyatın müxtəlif sahələrində fəal iştirak etmələrinə səbəb olar.

Rəyçi: pedaqoji elmlər doktoru
İ.Cəbrayılov

İstifadə edilmiş ədəbiyyat

1. Нейматов Я.М. Образование в XXI веке: тенденции и прогнозы. М.: Алгоритм, 2002.

2. Azərbaycan Respublikasında texni' i peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007–2012-ci illər) nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. "Azərbaycan" qəzeti, Bakı, 2007, 4 iyul.

3. Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007–2012-ci illər) // Təhsil Xəbərləri (Təhsil Nazirlıyının məlumat-informasiya məcmuəsi). Bakı: Pedaqogika, 2007, s. 5–17.

М.Ильясов

Организация профориентационной работы школьников в системе "общеобразовательная школа–первичное профессиональное образование – вуз"

Резюме

Большую роль в ориентации учащихся на выбор профессии важную роль играет взаимодействие социальных институтов и проведение ими совместной работы в этом направлении.

Подготовка учащихся к выбору профессии дает наиболее высокие результаты при взаимодействии этой работы общеобразовательных школ с профессиональными школами и лицеями, а также с вузами. В статье рассматриваются основные аспекты, проводимые в этом направлении работ.

M.İlyasov

Organization of vacational guidance of school children in the system of "School preliminary professional education–institute of higher education"

Summary

In the guarding of school–children to choose profession, the connection of the activity of social institutions and their joint operation on this field plays an important role.The preparation of school-children for profession choice on mutual conneetion of comprehensive schools with occupational schools and lyceums, as well as with higher institutions presents more succesful results. In this article, the main directions conducted on this field are dealt with.

Şagird şəxsiyyətinin formalaşdırılmasında müəllimin rolu

Kamalə Qəhrəmanova
BDU-nun müəllimi

Zəlihə Rəhimli
Suraxanı rayonu, 87 nömrəli tam orta məktəbin müəllimi

Açar sözlər: *müəllim, şagird, şəxsiyyət, təlim-tərbiyə prosesi, yeni təlim metodları, motivasiya.*

Ключевые слова: *учитель, ученик, личность, учебно-воспитательный процес, современные методы обучения, мотивация.*

Key words: *teacher, student, personality, process of training, new teaching methods, motivation.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan müəllimlərinin XIII qurultayının iştirakçılarına müraciətində demişdir:

"Azərbaycan təhsil tarixi hər birimizin fəxr etdiyi nailiyyətlərlə zəngindir. Azərbaycan müəllimləri bütün tarix boyu təhsildə daim varisliklə novatorluğun, ənənə ilə islahatın vəhdətini öz fəaliyyətlərində əks etdirmişlər. Bu gün qədəm qoyduğumuz informasiya cəmiyyəti və biliklərə əsaslanan yeni tipli iqtisadiyyatın formalaşması, qloballaşma çağırışları bütün dünya təhsil sistemi qarşısında yeni vəzifələr qoyur" (4 səh. 94).

Bu vəzifələrin uğurla həyata keçirilməsində müəllimlərin üzərinə böyük məsuliyyət düşür. Demək, gələcəyimiz olan gəncləri tərbiyə edən, onları müasir elmi-pedaqoji biliklərlə silahlandıran müəllimin özü, ilk növbədə yeniliyə hazır olmalı, dünyada gedən prosesləri qavramağı və düzgün nəticə çıxarmağı bacarmalı, cəmiyyət üzvlərinin kamilliyi və mənəvi yetkinliyi uğrunda fəal mübarizə aparmalı, daim elmi axtarışlarda olmalıdır.

Müasir dövr cəmiyyətin inkişafında insan amilinin rolunun artması ilə səciyyələnir. Bu səbəbdən gənc nəslin təlim-tərbiyəsi işi ilə məşğul olan pedaqoji kollektivlər, ilk növbədə müəllimlər yeni dövrün nəbzini tutaraq mənəvi–psixoloji iqlimin sağlamlaşdırılmasına, insan amilinə xüsusi diqqət yetirməlidir. Çünki müəllim təlim-tərbiyə prosesində əsas simadır. O, tədris etdiyi fəndən asılı olmayaraq uşaq və gənclərə fəal təsir göstərir, onların həyata baxışlarını, münasibətlərini formalaşdırır. Hər dövr müəllimin qarşısında yeni tələblər qoyur, ondan zamanın tələblərinə uyğun olaraq davranmağı, müəyyən keyfiyyətlərə malik olmağı tələb edir. Müasir şagird – bu gün mobil telefonla, noutbukla təchiz edilmiş, elmin və texnikanın ən müasir yeniliklərindən xəbərdar olan uşaqlardır.

Pedaqoji ədəbiyyatda müəllimlik işi şərəfli, məsuliyyətli, yaradıcı, çətin və

mürəkkəb iş kimi səciyyələndirilir, pedaqoji fəaliyyətdə müəllimin şəxsiyyəti yüksək qiymətləndirilir. Müəllimin başlıca şəxsi keyfiyyətləri sırasında yüksək əqidə, məslək, mədəniyyət və mənəviyyat, dərin bilik, erudisiya, fənni, peşəsini və uşaqları sevmək, yüksək nüfuz sahibi və uşaqlara nümunə olmaq kimi keyfiyyətlər qeyd olunur. Onun peşə qabiliyyətləri sırasında akademik, didaktik, ünsiyyət, konstruktiv, təşkilatçılıq və iradi-emosional qabiliyyətlər mühüm yer tutur.

Ona görə də bu günün müəllimi tədris etdiyi fənnin nəzəri əsaslarını dərindən bilməklə yanaşı, dünyada gedən prosesləri düzgün qiymətləndirməyi bacarmalı, elmi-texniki və ictimai-sosial tərəqqi ilə ayaqlaşmalı, uşaq və gənclərin psixologiyasına yaxşı bələd olmalı, öz fəaliyyətinə yaradıcı yanaşmalıdır. Hazırkı dövr müəllimin intellektual, mənəvi simasına, şəxsiyyətinə xüsusi tələblər verir. Belə ki, o, şagirdlərin müstəqil, yaradıcı təfəkküründən, idrak qabiliyyətinin inkişafına qayğı göstərməlidir. Müstəqil mühakimə yürütmək, elmi mübahisə aparmaq prosesində əsas ünsür dialoq olmalıdır. İndiki dövrdə gənc nəslin elmi dünyagörüşü onun hərtərəfli hazırlığı, məntiqi güeü ilə bərabər emosional təsir güeü ilə də səciyyələnir. Gəne nəslin həyata, cəmiyyətə, informasiyaların qavranılmasına yanaşma tərzi yeni çalarlar kəsb edir. İnsanın emosiyası həqiqət axtarışında daha qabarıq şəkildə özünü göstərir. Hər bir müəllim nəzərə almalıdır ki, həyatın özü dəyişir, elmi-texniki inkişaf sürətlənir, dünyada qloballaşma prosesi gedir. Belə bir şəraitdə köhnə metodlarla işləmək yolverilməzdir. Ona görə də, ilk növbədə onun özünün yeni yanaşmalarla və ideyalarla işləməyə hazır olması zamanın tələbidir. Yalnız belə olduqda o, həyatın nəbzini vaxtında tuta bilər. Əgər müəllim həm öyrətmək, həm də öyrənmək səriştəliliyinə malik olarsa, qarşıya qoyulan məqsədə çatmaq da asan olar. Pedaqoji ədəbiyyatlardan da məlum olduğu kimi, müəllim təqlid və ya nümunə modelidir, gənc nəslin öz gələcəyinə baxdığı pəncərədir. Bu səbəbdən şagirdlər müəllimin nə dərəcədə dəyişikliklərə açıq, öyrənməyə həvəsli olduğunu görərək öz fəaliyyətlərində də bunu tətbiq etməyə çalışırlar.

Təlim prosesində şagirdləri motivləşdirmək müasir dövrdə daha böyük aktuallıq kəsb edir. Motiv və ya niyyət insanı müəyyən hərəkətə yönəldən qüvvədir. öyrənmək arzusunu həyata keçirən enerjidir. Bu enerjini hərəkətə gətirmədən hədəfə çatmaq çətindir. Müəllim üçün fənnə, mövzuya maraq oyatmaq, şagirdlərin mövzuya bələdləşməsini həyata keçirmək çox önəmlidir. Motivasiya insan fəaliyyətinə istiqamət verən ən mühüm amillərdən biridir. Bu da sübut olunmuşdur ki, potensialını gerçəkləşdirməklə, istedadlarını, qabiliyyətlərini aşkar etməyə kömək göstərməklə məktəblilərin həyatını dəyişmək, onlarda özünəinam və güvən hissini gücləndirmək olar. Bu da onların gələcək həyatında öz qabiliyyətlərini asanlıqla üzə çıxarmağa, özünütəsdiqə kömək edər.

Emosional həssaslıq müəllim üçün önəmli xüsusiyyətdir. Şagirdlərin hissi və emosiyalarını duymaq, onları başa düşmək müəllim-tərbiyəçi üçün çox önəmlidir. Müəllimin hətta çətin situasiyalarda belə üzündə təbəssüm olmalıdır. O, hər bir arzuolunmaz vəziyyətdə müsbət cəhətləri görməyi bacarmalıdır. Güclü yumor hissinə malik olan müəllim çox asanlıqla xüsusilə çətin zamanlarda gərginliyi zəiflədərək mühiti yüngülləşdirir. Nəzərə almaq lazımdır ki, şagirdlərin bəzilərində müşahidə olunan aqressiya və neqativ münasibətlərin kökləri var. Müəllim bunu diqqət mərkəzində saxlamaqla hər bir vəziyyətdə sakitliyi və özünənəzarəti təmin etmiş olar. Tez bir zamanda cəza vermək çıxış yolu deyil, bəzən sakitliyi qorumaq, susmaq daha güclü təsir göstərir. Əsl müəllim, tərbiyəçi uşaq qəlbinə humanizmi ilə nüfuz edə bilir və öz şərəfli və məsul vəzifəsini yerinə yetirmiş olur. Genişqəlbli, ədalətli, xeyirxah, humanist, yüksək mənəviyyat müəssəsəsi olan, müəllim-şagird münasibətlərini düzgün nizamlamağı bacaran əsl pedaqoqdur.

Hərtərəfli biliyi, yüksək elmi, geniş erudisiyası, milli-mənəvi dəyərlərə malik müəllimi olan xalq tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərdən çıxmaq üçün həmişə özündə qüvvə və iradə tapa bilir. "Siz bilik öyrədən adamı böyük sayın" deyən Məhəmməd Peyğəmbər biliyi bilməyənlər arasında yaymağı ən böyük savab kimi dəyərləndirirdi. Müəllim əməyinə daim böyük qiymət verən ulu öndər Heydər Əliyev demişdir: "Müəllimlik sənəti, peşəsi əməkdaşlıq ən yüksək qiymətə layiq olan bir peşədir. Müəllim olmaq kimi gərəkli bir iş yoxdur. Çünki müəllimlər xalqın biliklənməsinin, təhsilin inkişaf etməsinin və nəhayət, xalqın elminin yüksəldilməsinin əsasını qoyur". N.Tusinin də müəllimlik peşəsi ilə bağlı fikirləri olduqca maraqlı və aktualdır: "... bu dünyadakı mövcudatın ən şərəflisi olan insanı kamilliyə çatdırmaq məqsədi güdən sənət dünya sənətlərinin ən şərəflisi olmalıdır" (4 səh. 93).

Bu da sübut olunmuşdur ki, məktəbdə təlim-tərbiyənin səviyyəsi müəllim-şagird münasibətlərindən çox asılıdır. Müəllim-şagird münasibətlərində bir sıra şərtlərə əməl edilməsi tələb olunur: ilk növbədə müəllim şagirdlərə biliyi mexaniki şəkildə ötürməməlidir. O çalışmalıdır ki, uşaqlar təlimdə səy və fəallıq göstərib, bilikləri müstəqil əldə etsinlər. Bunun üçün şagird müəllimi hər şeyi bilən, xüsusilə də dərsini yaxşı qurmağı bacaran, bədii və elmi ədəbiyyatı daim mütaliə edən və öyrəndiklərini tətbiq etməyi, şagirdlərə müstəqil şəkildə öyrənməyin yollarını göstərməyi bacaran insan-vətəndaş kimi tanımalıdır. Şagird müəllimə nümunə kimi baxmasa, onun verdiyi tərbiyə və biliyin təsiri güclü olmayacaqdır. Müəllim-şagird münasibətinin əsasını qarşılıqlı inam və etibar təşkil edir.

Müəllim sinif otağında bir tərbiyəçi rolunda çıxış etməlidir. Belə olduqda uşaqlar müəllimə şəxsiyyət kimi yanaşar, ona dərin hörmət və ehtiram bəsləyərlər.

Şagirdlərin fikirlərinə hörmətlə yanaşmaq, onlara düzgün istiqamət vermək hər bir müəllimin peşə borcudur. Qarşıya çıxan çətinliklərin düzgün diaqnozu onun pedaqoji ustalığından asılıdır. Bu, ayrı-ayrı situasiyalarda düzgün qərar qəbul etməyə imkan verir. Təşkilatçılıq bacarığı vaxtdan səmərəli surətdə istifadə etməkdə, planlı şəkildə hərəkət etməkdə önəmli yer tutur.

Şagirdlərin təsəvvürlərində yaratdıqları müəllim obrazını öyrənmək üçün aparılan sorğulardan belə nəticəyə gəlmək olar ki, əksər uşaqlara görə əsl müəllim dərs prosesində müasir təlim metodlarından, informasiya - kommunikasiya texnologiyalarından düzgün və səmərəli istifadə edən müəllimdir. Çünki informasiya-kommunikasiya texnologiyalarının tədris prosesində tətbiqi bu gün qloballaşan dünyanın, informasiyalı cəmiyyətin zəruri tələblərindən və ehtiyaclarından irəli gəlir. Şagirdlər haqlı olaraq belə düşünürlər ki, İKT-dən tədris prosesində istifadə yeni ünsiyyət formalarını meydana çıxarır, "müəllim-şagird", "şagird-şagird" əməkdaşlığının tənzimlənməsi üçün əlverişli şərait yaranır.

Müəllimlər şagirdlərin dərslərdə əksər hallarda sakitliyə riayət etməmələrindən şikayətlənir, şagirdlər isə bunu fənnə qarşı marağın olmaması, dərsin darıxdırıcı olması ilə izah edirlər. Bu da əsasən müəllimlərin tədris prosesində ənənəvi metodlardan istifadə etmələri ilə əlaqə-

dardır. Halbuki interaktiv metodlardan istifadə edilməsi şagirdləri dərslərə daha çox cəlb edə bilər.

Müəllim bu gün ilə gələcək arasında körpüdür. Bu körpünün sağlamlığı onun keyfiyyətli tədrisetmə bacarığından asılıdır.

Şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişafı üçün şərait yaratmaq, onlara öyrənməyi öyrətmək müasir dövrün tələbidir. Ona görə də müasir müəllim şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişafı üçün şərait yaratmalı, onlara müstəqil düşünməyi öyrətməli, predmetlərin öyrənilməsində motivasiyanı formalaşdırmalı, bir sözlə, "öyrənməyi öyrətmək" qabiliyyətini formalaşdırmalıdır.

Təhsilin keyfiyyəti yalnız yeni texnologiyaların tətbiqi ilə deyil, həmçinin təhsildə humanist yanaşma və pedaqoji işçilərin peşə bacarıqları ilə müəyyən edilir. Müəllim üçün ən vacib keyfiyyətlərdən biri humanizmdir. Humanist münasibətlər şagirdin şəxsiyyətinə maraqdan, onun vəziyyətinə şərik olmaqdan, fikrinə hörmət etməkdən, tədris fəaliyyətinə yüksək tələbkarlıqdan və s. ibarətdir.

Müasir dövr cəmiyyətin inkişafında insan rolunun artmasına diqqət yetirir. İnsan rolunun artmasında aydın, məqsədə yönəldilmiş təlim-tərbiyə işinin rolu böyükdür. Bu səbəbdən gənc nəslin təlim-tərbiyəsi işi ilə məşğul olan pedaqoji kollektiv, müəllim yeni dövrün nəbzini tutaraq mənəvi–psixoloji iqlimin sağlamlaşdırılmasına, insan amilinin fəallaşdırılmasına xüsusi diqqət yetirməlidir.

Müasir dövr zamanın tələbinə uyğun olaraq müəllimin qarşısına yeni tələblər qoyur. İndiki şəraitdə müəllimin vəzifəsini lazımi tələblər səviyyəsində yerinə yetirməsi onun nəzəri hazırlığından, yetkinliyindən, yenilikləri qəbul etmək səriştəliliyindən asılıdır. Yeni dövrdə tədris etdiyi fənnin əsaslarını bilməklə bərabər müasir vəziyyəti, ictimai-sosial tərəqqini dərk edən, bu tərəqqidə fənnin, öyrəndiklərinin rolunu göstərmək bacarığı olan, geniş dünyagörüşünə, öyrətdikləri uşaq və gənclərin psixologiyasına yaxşı bələd olan, öz fəaliyyətinə yaradıcı yanaşan müəllimin işi səmərəli ola bilər. Dərsin təşkili zamanı elə metodlar seçilib tətbiq edilməlidir ki, öyrənənlərin müstəqil təfəkküründə inkişafına şərait yaratmaq, idrak qabiliyyətini inkişaf etdirmək mümkün olsun. Məntiqi, tənqidi, yaradıcı təfəkkürün inkişafına, öyrənənlərdə hadisə və faktlardan müstəqil və əqli nəticə çıxarmaq bacarığının formalaşmasına zəmin yaradılmalıdır. Müşahidələr göstərir ki, müstəqil mühakimə yürütmək qabiliyyəti, elmi mübahisə aparmaq bacarığı prosesində əsas ünsür dialoq olarsa, bu, tədrisin müasir tələblər səviyyəsində qurulmasına gətirib çıxarar.

Hər bir müəllim yeniliyə hazır olmalıdır. Çünki heç bir şey olduğu kimi qalmır, idarə olunan və idarə olunmayan amillərdən asılı olaraq dəyişikliyə məruz qalır. Ona görə də ənənə ilə birgə daim yeni yollar, ideyalar, sistemlər və yanaşmalar axtarışında olmalıyıq. Daim yeni biliklərə yiyələnmək həvəsi müasir metodları tez dərk edərək tətbiq etməyə kömək edir.

Motiv və ya niyyət öyrənmək arzusunu həyata keçirən bir enerjidir. Bu enerji hərəkətə keçmədən və ya bu enerjini hərəkətə gətirtmədən hədəfə çatmaq, müəyyən edilən vaxtda qoyulmuş məqsədə nail olmaq çətindir. Müəllim üçün dərsə qarşı maraq oyandırmaq, öyrənənlərin mövzuya adaptasiyasını həyata keçirmək çox önəmlidir. Bu, öyrənənləri hərəkətə sövq edərək onların iradəsini formalaşdırır, motivasiya edir. Motivasiya insan münasibətlərinə istiqamət verən ən önəmli faktorlardan biridir. Gənclərin həyatını onların potensialını gerçəkləşdirməyə kömək etməklə, öz istedadlarını, bacarıq və qabiliyyətlərini aşkar etməyə kömək göstərməklə dəyişmək mümkündür. Onlarda özünəinam və güvən hissini formalaşdırmaq gələcək həyatlarında öz qabiliyyətlərini asanlıqla üzə çıxarmağa kömək edər.

Yaradıcı olmaq müəllim üçün önəmli xüsusiyyətdir. Məktəbliləri yaradıcı və ruhlandırıcı metodlardan istifadə etməklə həvəsləndirə bilərik. Müəllimin şagirdləri ilə münasibətində qayğıkeşliyi hiss olunmalıdır. Onun şagirdlərinin hisslərini və emosiyalarını başa düşmək imkanı var. Onlarla ünsiyyət saxlamaq, səhv edəndə onlarla rəhmli olmaq və qayğı göstərmək, yaxşı iş görəndə sevinmək, nikbinlik vacibdir. Müəllim öyrətdiyi insanların hərəkətləri və davranışları haqqında daha çox nikbin və daha az bədbin fikirləşməlidir.

Araşdırmalara görə "Təhsil əsri" elan olunan XXI əsrin müəllimi "şəxsi problemləri dərsdə əks etdirməməli, hiddət və şiddət kimi ünsürlərdən uzaq durmalı, şagirdlərinə bir psixoloq kimi yanaşmalı, gözəl danışmalı, əməliyyətdə nüfuza malik olmalı, yüksək təhsillə yanaşı müasir texnologiyalardan istifadəni bilməlidir". Belə olarsa, xalqımızın gələcəyi olan məktəbliləri milli adət-ənənələr ruhunda, qloballaşmaqda olan dünyanın müasir tələblərinə əvəb vermək əzmində hazırlamaq, əsl vətəndaş kimi yetişdirmək mümkün olar.

Rəyçi: pedaqogika üzrə fəlsəfə doktoru, dosent M.İsmixanov

İstifadə edilmiş ədəbiyyat

1) Əlizadə Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika, 2004.

2) Ağayev Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006.

3) İsmıxanov M. Pedaqogikanın əsaslan. Bakı, 2008.

4) Abbasov O. Müəllim hazırlığında milli dəyərlərdən istifadə imkanı. // Azərbaycan məktəbi, № 5, 2009.

5) Qasımova L., Mahmudova R. Pedaqogika. Bakı, 2003.

6) Suzann R.A.,Neil J.Salkind, Child development.

7) Z.William Glasser, M.D.,The quality school teaeher, 1993.

K.Гахраманова,
З.Рагимли

Роль учителя в формировании личности учащегося

Резюме

В статье говорится о роли учителя в формировании личности учащегося. Отмечается важность и роль личности учителя в учебно-воспитательном процессе. Такие качества, как высокая культура, мораль, глубокое знание, эрудиция, любовь к предмету и учащимся характеризуются главными качествами учителя.

K.Gahramanova,
Z.Rahimli

The role of a teacher in formulating student personality

Summary

In this artiele it is spoken about teacher's role in formulating student personality. Teaeher's dominant role is noted in education proeess. Teacher's main qualities are eharaeterized as being polite, with morality, deep knowledgeable and with erudition, loving his (her) students, and beeoming a good example for ehildren.